# H.B.Zərdabi və mədəniyyətimiz



**Həsən bəy Zərdabi xalqının mədəniyyətinə sıx bağlı şəxsiyyət olub. Bu bağlılıq yeniyetməlik yaşlarında - ata evində, doğma Zərdabda formalaşmışdır. O, el-obanın xeyir-şərində daim iştirak edib, mədəni irsimizin nümunələri ilə tanış olmuşdur.**

Bu marağın ən böyük təkanvericisi isə dövrünün zəkalı insanlarından olan babası Rəhim bəy və atası Səlim bəy olmuşdur. Tarixi faktlardan aydın olur ki, istər Rəhim bəyin, istərsə də Səlim bəyin evi daim mədəniyyət, bədii yaradıcılıq, maraq klubu, folklor təbliği evi olmuşdur.

Onların evi mütərəqqi fikirli şəxslərin görüş yeri idi. H. Zərdabinin həyat yoldaşı Hənifə xanım yazırdı ki, Həsən bəyin ilk müəllimi atası Səlim bəy olmuşdur. Həsən bəy özü də xatırlayırdı ki, atası Səlim bəy ona nəsilləri, babası Rəhim bəyin general Paskeviçlə söhbətləri barədə danışardı. Bu isə əlbəttə ki, Zərdabinin ümumi mədəni inkişafına dərin təsir etməyə bilməzdi. H. Zərdabi "Kaspi" qəzetinin 1902-ci il, 173-cü nömrəsində "Keçmişdən" adlı yazısında qeyd edirdi ki, keçmişdə Zərdabda keçirilən mədəni tədbirlərin ünvanı atası Səlim bəyin evi idi.

Z.Məmmədov "Həsən bəy Zərdabi", E.Cavadova "Sətirlərdə döyünən ürək" kitablarında H.B.Zərdabinin mədəniyyətimizin formalaşmasında əməyini haqlı olaraq çox yüksək qiymətləndirirlər. Bu mənada Zərdabinin həm də etnoqraf-mədəniyyətşünas olmasına şübhə yeri qalmır.

H.Zərdabi "Əkinçi" qəzetində mədəniyyətin, əkinçilik, maldarlıq, sağlamlıq, xalq yaradıcılığı mədəniyyətlərinin əsasları barədə geniş təhlili məqalələr vermişdir. Onun irsində xalqımızın maddi və mənəvi mədəniyyət barədə düşüncələri xüsusi yer tutur. Elə buna görə də respublikamızda Zərdabişünaslıq elmi yaranmışdır.

Zərdabişünaslıq elmindən aydın olur ki, nəinki Zərdabda, eyni zamanda Əlibəyli kəndində açdırdığı ibtidai məktəbdə fəaliyyət göstərən uşaq dərnəkləri ilə o, klubşünaslığın demək olar əsasını qoymuşdur. O bu cür fəaliyyətilə sinifdənxaric tərbiyəni də, mədəniyyəti də formalaşdırmışdır. 1879-cu ildən 1896-cı ilə kimi ailəsi ilə Zərdabda olarkən mütərəqqi hərəkətləri ilə təbliğatı sürətləndirmişdir. Belə ki, Zərdabda çayxanalara gedir, burada mədəniyyət mövzularında söhbətlər aparırdı ki, bu da Azərbaycanda çayxana-klub ünsürlərinin yaranmasına təkan vermişdir. Elə indi də "Çayxana-klub", "Kafe-klub" kimi başa düşdüyümüz ifadələrin yaranmasında H.Zərdabinin əməyi böyükdür. Bu mədəniyyət ünsürlərini yaratmaqda Həsən bəyə Moskvada oxuyarkən xüsusi məişət və mədəniyyət dərnəklərindəki iştirakı böyük kömək etmişdir.

Həsən bəyin xalqımızın hərtərəfli mədəniyyətini formalaşdırmaq sahəsindəki fəaliyyəti onu teatrımızın banisi, mətbuatımızın banisi, torpaqşünaslıq elminin banisi zirvəsinə qaldırdı. Əslində o, 40 il müddətində mədəniyyətimizin carçısı olmuşdur.

Həsən bəyin müxtəlif sahələrdə əldə etdiyi mədəni nailiyyətlər 1889-cu ildə Tiflisdə keçirilən sərgidə xüsusi medala və mükafata layiq görülmüşdür.

**H.Zərdabi təkcə mətbuatımızın, teatrımızın, torpaqşünaslıq elmimizin banisi, publisistikamızın, teatrşünaslıq elmimizin təkanvericisi deyil, eyni zamanda hər bir sahədə mədəniyyətimizin inkişafı, etnoqrafiyamızın hər sahəyə tətbiqi sahəsində yaradıcı insan olmuşdur. Bu baxımdan bütün Azərbaycanımızın bu ensiklopedik alimlə fəxr etməyə böyük haqqı var.**

**Zabit CAVADOV**